*unjustified territorial claims and as a result of occupation of 20% of the ancestral lands, the continuous inflating of supposedly existing social and political problems in the Nagorno–Karabakh Autonomous Region of the Republic of Azerbaijan gives them the «right» and will be torn away this area in favor of the neighboring republic. The article also analyzes the resolutions adopted by the UN Security Council, the positive and negative sides of the declarations adopted by international organizations against the groundless aggressive policy of one of the countries of the South Caucasus on the departure of another neighbor country, their missing parties are displayed and the reasons for non–fulfillment of declarations are explained.*

***Keywords:*** *Nagorno–Karabakh conflict, interethnic conflict, policy of aggression, UN Security Council resolutions.*

***Гайбалиева Н.,*** *докторант кафедри історії (факультет гуманітарних наук) Азербайджану, Бакинський Державний Університет (Азербайджан, Баку), matlabm@yandex.ru*

**Питання територіальної цілісності у зовнішній політиці Азербайджанської Республіки**

*Йдеться про політику агресії однієї країни по відношенню до іншої прикордонної країні в Південному Кавказі. Відзначається, що протягом ХХ століття необґрунтованих територіальних претензій і в підсумку окупованих 20% споконвічних земель, безперервне роздування нібито наявної проблеми соціального і політичного характеру в Нагірно–Карабахській Автономній Області Республіки Азербайджану дає їм «право» і відірвати цю область на користь прикордонної республіки. У статті також, аналізуються резолюції, прийняті РБ ООН, позитивні і негативні сторони декларацій, прийнятих міжнародними організаціями проти безпідставної агресивної політики однієї з країн Південного Кавказу по відношенню до іншої прикордонної країни, відображаються їх відсутні сторони і роз'яснюються причини невиконання декларацій.*

***Ключові слова:*** *Нагірно–Карабахська проблема, міжнаціональний конфлікт, політика агресії, резолюції Ради Безпеки ООН.*

* * *

УДК 378.12

**Hüseynov İ.,**
Mədəniyyətşünaslıq doktoru, Azərbaycan Dövlət
Mədəniyyət və İncəsənət Universiteti
(Azərbaycan, Bakı), turanly@yahoo.com

## Muzeylərin inkişaf mərhələlərinə tarixi–kulturolojibaxiş

*Bəşəriyyətin tarixi keçmişinə aid qiymətli materiallar qorunur, gələcək nəsillər üçün saxlanılır və muzeylər tərəfindən nümayiş olunur. Həm də keçmişin gələcəyə köçürülməsində oynayan muzeylərin böyük rolunu da qeyd etmək olar. Muzeylərdə dünya mədəniyyətinin nadir inciləri tapa bilərsiniz.*

*Dünya muzeylərində insanlığın maddi sərvətinin ən qiymətli nümunələri saxlanılır və nümayiş olunur. Məqalədə muzeyin inkişaf mərhələləri tarixi və mədəni araşdırma mövqeyindən yaxınlaşdı və Azərbaycanın muzeyləri daxil olmaqla, dünya muzeylərində geniş məlumatlar verildi.*

***Açar sözlər:*** *dünya muzeyləri, incəsənət əsərləri, muzey eksponatları, Azərbaycan muzeyləri.*

*(стаття друкується мовою оригіналу)*

Bəşəriyyətin tarixi keçmişinə aid olan dəyərli materiallar muzeylər tərəfindən mühafizə edilir, gələcək nəsillər üçün qorunub saxlanılır və nümayiş etdirilir. Muzeylər mütəmadi olaraq cəmiyyətin xidmətində olan qurumlardır. Muzeylərin funksiyalarına gəldikdə isə toplama, sənədləşdirmə, qorumaq, xalqa göstərmək və təhsil verməkdən ibarətdir. Qurulduğu gündən bəri təhsil vermək muzeylərin əsas məqsədlərindən biri olmuşdur. Muzeylərin keçmişin gələcəyə ötürülməsində oynadığı böyük rolu da qeyd etmək yerinə düşərdi.

Dünya mədəniyyətinin ən nadir incilərinə məhz muzeylərdə rast gəlmək mümkündür. Dünya muzeylərində bəşəriyyətin maddi sərvətlərin ən dəyərli nümunələri həm mühafizə edilir və həm də nümayiş etdirilir. Ümumiyyətlə, tarix boyu insanların yaratdıqları maddi mədəniyyət nümunələrinin hansı tərəqqi yolunun keçməsinə də muzeylərdə rast gəlmək mümkündür. Dünya muzeyləri içərisində bir sıra nüfuzlu və tanınmış muzeylər vardır ki, bu muzeylərdəki maddi mədəniyyət nümunələri daha cəlbedici və daha məşhurdur.

Muzey insanların incəsənətə olan düşkünlüyü və incəsənət əsərlərini toplamaq meylindən yaranmışdır. «Muzey» anlayışının mənşəyi yunan dilində istifadə edilən «mouseion» sözündən meydana gəlmişdir. Qeyd edək ki, bu söz yunan mifologiyasında ilham pəriləri olan «muzalar» adındakı ilahələrə həsr olunan məbəd və Afinada bu ilahələrə ayrılan təpə mənasında idi». Ümumiyyətlə, dünya muzey tarixinin öyrənilməsi göstərir ki, ilk muzeylərin yaranması insanın yaradıcılıq meyilləri ilə bağlıdır. Kolleksiya toplamaq meyli insanın təbii maraq və istəklərindən biridir. Toplanılan kolleksiyaların həcmi həddindən artıq olduqda, bu, fərdi istək və arzulardan kənara çıxır və bu zaman həmin kolleksiyanı nümayiş etdirmək tələbatı meydana gəlir. Təcrübə göstərir ki, ilk kolleksiyalar müxtəlif məqsədlərlə toplanmışdır. Bəzən bu sənət əsərlərinə olan maraqdan, bəzən sərvət toplamaq meylindən, bəzən isə sadəcə olaraq dərk etmək tələbatından meydana gəlir» [1, səh. 57].

Ellinizm dövrün məhsulu olan muzeylər müasir dövrdə də önəmli bir mövqeyə malikdir. Tarixi mənbələrdən bizə məlumdur ki, hələ e.ə. 306 – 285–ci illər arasında Misirin İskəndəriyyə şəhərində yerləşən muzey mövcud olmuşdur. İskəndəriyyə şəhərində yerləşən sarayın bağçasında tikilən muzeyin ətrafında kitab rəfi, böyük meydança, rəsədxana, yemək və iş otaqları, nəbatat və heyvanat parkları var idi. Bu muzey həm universitet, həm akademiya, həm də monastır xarakterinə malik olan bu muzeydə Yunanıstanın və şərq ölkələrinin qədim və yeni sənət nümunələri toplanır və qorunurdu. Bütün bu keyfiyyətlərinə görə İskəndəriyyə şəhərində yerləşən bu tikili müasir muzey anlayışının əsasını təşkil edirdi. Romalıların dövründə isə muzey sözündən əvvəllər fəlsəfi müzakirələrin aparılan yer kimi istifadə edirdilər. Sonrakı dövrlərdə isə Romalılar Perqam, Antakya, Roma və Afina şəhərlərində müasir muzey timsalında abidələrin inşası ilə məşğul olurdular.

Orta Əsrlərdə məbədlərə və dini mərasimlərlə bağlı müqəddəs yerlərə hədiyyə edilən müxtəlif əşyalar kolleksiyaların meydana gəlməsində mühüm rol oynayırdı. İntibah dövründə baş verən yeni axtarışların fövqündə tədqiqatlar artmışdı, bunun nəticəsində isə elm və incəsənət sahəsində sürətli bir tərəqqi baş vermişdi. İntibah dövründə həmçinin kolleksiya toplamaq da inkişaf etmişdi. Qədim əşya və qədim əsər toplamağa aludə olan kolleksiya həvəskarları XVI əsrin əvvəlində bütün dünyada geniş yayılmışdı. Bu dövrdə kolleksiyaçılar tərəfindən toplanan əşyalar sonralar muzeylərin inkişafı üçün yeni zəmin yaratmış oldu. Bir növ bu kolleksiyalar muzeylər üçün materialın yaranmasına vəsilə oldu.

Zaman keçdikcə Qərbi Avropada müasir tipli muzeylər meydana gəlməyə başladı. «XVI–XVII əsrlərdə Avropada müasir tipli muzeylərin meydana gəlməsi, peşə sənətkarlığının nəzərə çarpacaq dərəcədə inkişafı ilə əlaqədar idi. Böyük coğrafi kəşflər, kitap çapının sürətli inkişafı nəticəsində biliklərin yayılması kimi məsələlər incəsənətin, o cümlədən rəssamlıq və heykəltəraşlığın fəaliyyətinə təkan vermişdir.

Avropanın müxtəlif ölkələrində meydana gəlmiş bu cür mənəvi sıçrayış, bir sıra elmi və ictimai tələblərlə bağlı idi. İtaliyada, İngiltərədə, Fransada, Almaniyada və bir sıra ölkələrdə inkişafla əlaqəli belə tələblər nəticəsində müxtəlif kolleksiyalar, bu kolleksiyaların ayrı–ayrı elm xadimləri tərəfindən sistemləşdirilməsi, nəhayət onların elmi şəkildə

araşdırılması, muzeylərdə cəmləşdirilməsi daha böyük əhəmiyyət kəsb edir» [2, səh. 7].

XVI əsrin ortalarında «muzey» sözündən indiki anlamda ilk dəfə İtaliyada istifadə edilməyə başladı və bu dövrdə İtaliyada Medici ailəsinə aid bir kolleksiyanın tanıdılması zamanı bu istilahdan istifadə olundu. Elə bu dövrdən başlayaraq bir–birinin ardınca müxtəlif bədii əsərlərin mühafizə edildiyi və sərgiləndiyi muzey və qalereyalar meydana gəlməyə başldı. Dünyanın ən qədim muzeylərindən biri də Vatikanda 1506–cı ildə açılıb. Vatikan muzey 1400 otaqdan ibarətdir. Qeyd edək ki, bu muzeydə 54 qalerya, zal və Sikstin kapellası mövcuddur.

Zaman ötdükcə muzey işinin qurulması işində böyük irəliləyişlər hiss olunmağa başlayır. «Getdikcə muzey fəaliyyətində planlılıq, ardıcıllıq və mütəmadiliyin qarşılıqlı əlaqəsi nəticəsində böyük təcrübə əldə edilir, planlılıq, ardıcıllıq və mütəmadilik biri–biri üçün şərtə çevrilir. Yəni, planlı fəaliyyət ardıcıllığa zəmin yaradır, eyni zamanda, planlı fəaliyyət yalnız ardıcıl şəkildə yerinə yetirilməlidir. Digər tərəfdən isə planlaşdırma hər il, ay, hər gün, hər saat, hər an baş verməlidir, keçiriləcək tədbirlər mütəmadi xarakter almalıdır.

Beləliklə, muzey fəaliyyətində planlılıq, ardıcıllıq və mütəmadilik sistemə çevrilir, muzeyin gündən–günə inkişafına təkan verir və bu proses getdikcə qanunauyğun xarakter alır» [3, səh. 56].

XVIII əsrin ortalarına başlayaraq muzeylərdə əsərlərin xalqa nümayiş etdirilməsi ideyası daha geniş yayılmağa başladı. Bu dövrdə bir sıra tədqiqatçıların ilk muzey hesab etdikləri Lüksemburq muzeyi də məhz 1750–ci ildə yaradıldı. Onu da qeyd edək ki, Lüksemburq muzeyi dünyanın elm aləminə məlum olan ilk rəsmi muzeyidir. Lüksemburq müzeyi (fransızca: Muse du Lüksemburq), Fransanın paytaxtı Paris şəhərində yerləşir. Bu incəsənət muzeyi Lüksemburq Sarayının (Palais du Lüksemburq) yanında yerləşir. Lüksemburq müzeyində əsasən rəsm əsərləri və heykəllər nümayiş etdirilidi. Lüksemburq müzeyindəki kolleksiyanın böyük bir qismi 1986–ci ildə yeni açılmış Orse muzeyinə (fransızca: Musée d'Orsay) köçürülüb. Müasir dövrdə Fransa Senatı tərəfindən idarə edilən Lüksemburq müzeyində Fransa Mədəniyyət Nazirliyi və Fransa Senatı tərəfindən sərgilər təşkil olunur.

Luvr Muzeyindən təxminən əlli il əvvəl açılan Lüksemburq muzeyi xalqa açıq olan ilk sənət muzeyi kimi 14 oktyabr 1750–ci ildən fəaliyyət göstərir. Lüksemburq Sarayının şərq tərəfindəki Mariya de Medici qalereyasının bir hissəsində yaranan bu muzeydə ilk dəfə kral incəsənət kolleksiyanın parçalarından ziyarətçilərə nümayiş etdirilirdi. Həmçinin Leonardo da Vinçi, Titian, Rafael, Rembrandt, Entoni van Dik, Klod Lorrain kimi rəssamların əsərləri də muzeydə sərgilənənirdi. Lüksemburq muzeyi 1780–ci ildə XVIII Luiz tərəfindən bağlansa da 1803–ci ildə yenidən bu muzeyin qapıları açıldı.

Britaniya muzeyləri içərisində London milli qalereyasının da özünəməxsus bir yeri vardır. 1824–cü ildə əsası qoyulan bu muzey Londonun məşhur Trafalqar meydanında yerləşir. 2015–ci ildən London milli qalereyasının direktoru sənətşünas Qabriel Maria Finaldidir. Bu muzeyi ziyarətə gələnlərin sayı 2013–cü ildə 6 031 574 nəfər olmuşdur. Əgər 1824–çü ilin may ayında bu muzey ilk dəfə fəaliyyətə başlayanda 38 rəsm əsəri var idisə, müasir dövrdə bu göstərici 2300–dən çoxdur. Muzey XIII əsrdən tutmuş XX əsrə qədər bir çox rəsm əsərinə malikdir. Bütün bu kolleksiyanın sahibi Böyük Britaniya xalqıdır və bu muzeyə giriş sərbəstdir. Trafalqar meydanının şimal sahilində yerləşən London milli qalereyasının ön tərəfinin memarı Vilyam Uilkins idi və Sainsbury Kanadı, Robert Venturi və Denis Skott Braun tərəfindən genişləndirildi.

1773–ci ildə ABŞ–ın Cənubi Karolina ştatında Çarlston muzeyi ilk xalq muzeyi kimi fəaliyyətə başladı. Qeyd edək ki, bu muzey ABŞ–da fəaliyyət göstərən muzeylər içərində ən qədim muzey hesab olunur. Müasir dövrdə isə ABŞ–da fəaliyyətgöstərən məşhur muzeylərə Endi Uorhol muzeyi, Hyuston Müasir İncəsənət Muzeyi, Metropoliten muzeyi, Milli Sənət Qalereyası, Milli Təbiət Tarix muzeyi (Vaşinqton), Nyu–Cersi rus incəsənəti muzeyi, Nyu–York Müasir İncəsənət Muzeyi, Solomon Quqqenhaym muzeyini və başqalarını göstərmək olar. Bu muzeylərin içərisində xüsusilə, Metropliten muzeyi dünyada daha məşhur muzeylərdən biridir.

Dünyanın ən məşhur muzeylərindən biri olan Luvr muzeyi isə 1793–də Fransada yarandı. Parisdə məşhur Luvr sarayında yaradılan bu muzeydə müharibələr vaxtı əldə olunan döyüş qənimətləri nümayiş etdirilir. Avropanın bir çox ölkəsindən əldə edilən misilsiz xəzinələrlə yanaşı dünyanın bir çox nadir sənət nümunələrinə bu muzeydə rast gəlmək mümkündür. «Bu muzeydə demək olar ki, hər şey var. Buna görə də muzeyi universal adlandırmaq mümkündür. Onun kolleksiyasına böyük coğrafi və tarixi nümunələr daxildir. Burada Qərbi Avropadan tutmuş İran, Yunanıstan, Misir və Yaxın Şərq incəsənətinədək rast gəlmək olar.

Luvrun ən tanınmış eksponatları: Hamurappi qanunları, Miloslu Venera və Samofrakiyalı Nika heykəlləri, Cokonda (Mona Liza) və Leonardo da Vinçinin digər rəsmləri, Rembrant və Tisianın əsərləri, Ejen Delakruanın Xalqa yol göstərən azadlıq» rəsm əsəri sayılır. Luvr dünyada ən çox ziyarət edilən muzey adlandırılır, 2007–ci ildə burada 8,3 milyon nəfər olmuşdur» [5].

Dünyanın ən böyük muzeylərindən biri olan Amerikan Təbiət Tarixi Muzeyi 1874–cü ildə, Nyu–York Metropoliten İncəsənət Muzeyi isə 1880–ci ildə istifadəyə verildi. Əsasən incəsənət əsərlərinin sərgiləndiyi Metropoliten muzeyi könüllü ianələr əsasında çoxsaylı kolleksiyaya malik oldu və bu ianələr nəticəsində öz fəaliyyətini daha da genişləndirdi. Bu muzeyə ianə bağışlayan milyonçular içərisində Morqan, Rokfeller, Ceykob Rocers, Qoras Xevmeyer və başqalarının adını çəkmək olar. Metropoliten muzeyi də kolleksiyanın və ziyarətçilərin sayına görə dünyanın ən nüfuzlu muzeylərindən biridir. Bu muzeydə Azərbaycan tarixinə də dair sənət nümunələri qorunub saxlanılır. Bu sənət nümunələrinə Urmiya gölü ətrafında Ziviyə mahalından tapılmış e.ə. VIII–əsrə aid edilən zərgərlik nümunələrini, minlərlə xovlu və xovsuz, ornamental və əla növlü xalça sənəti nümunələrini misal göstərmək olar.

Bu muzeydə təkcə bizim ölkəyə aid deyil, dünyanın bir sıra bölgələrinə aid sənət nümunələri sərgilənməkdədir. «Muzeydə Orta əsrlər, Afrika mədəniyyəti, Yaxın Şərq mədəniyyəti, Qədim Dövr, Qrafika və digər şöbələrdə 3 milyona yaxın eksponat saxlanılır. Bunların arasında üstünlük təşkil edən qədim Misir, Yunanıstan, Roma mədəniyyəti və Yaxın Şərq ölkələrinə aid olan eksponatlardır. İslam mədəniyyəti nümunələri kolleksiyası dünyada ən böyük kolleksiya sayılır. Uzaq Şərq ölkələri şöbəsində Çin dövlətinə məxsus rəsm əsərləri,heykəltəraşlıq nümunələri,gümüş və saxsı qablar nümayiş olunur.

Qədim Misir mədəniyyəti şöbəsində sarkofaq və mumiyalar (b.e.ə. 1 minillik), məşhur Sfinks heykəli, sərdabələrdən götürülmüş bəzək əşyaları,ağacdan düzəldilmiş mebel, müxtəlif ayaqqabı və geyim əşyaları və s. nümayiş olunur. Qədim dünya mədəniyyəti şöbəsində Yunanıstan və Roma, həmçinin Kipr adasından götürülmüş eksponatlar sərgilənir. Bunlara daha çox heykəltəraşlıqəsərləri aiddir. Məsələn, imperator Konstantinin büstü (325–ci il), yaralı amazonka heykəli çoxlu ziyarətçi cəlb edən eksponatlardır.

Silah nümunələri saxlanılan şöbədə cəngavər dəbilqələri, müxtəlif növ qılınclar və odlu silah növləri təqdim olunur. Qrafika şöbəsi ziyarətçiləri Avropanın məşhur rəssamları Leonardo da Vinçi, Buonarroti, Rafael Santi, Mikelancelo, Rembrandt və başqalarının rəsm əsərləri ilə tanış edir. Musiqi alətləri şöbəsində isə dünyanın bütün qitələrini təmsil edən 4000 müxtəlif musiqi aləti saxlanılır. Saxlanılan alətlərdən ən qədiminin 1200 yaşı var» [6].

XIX əsrdə təməli qoyulan muzeylərdən biri də Yaponiyada 1872–ci ildə yaranan Tokio Milli Muzeyi olmuşdur. Tokio Milli Muzeyi (yaponca, Tokyo Kokuritsu Hakubutsukan) Yaponiyanın həm ilk və həm də ən önəmli incəsənət muzeyidir. Tokio Milli Muzeyinin ilk kolleksiyası yapon tarixinə, sənətinə, texnologiyasına, elminə və təbiət tarixinə dair dəyərli eksponatlardan ibarət idi.

Bu muzey Tokioda yerləşən Ueno parkındadır. Nəhəng mədəniyyət mərkəzi kimi tanınan Tokio Milli Muzeyində yapon tarixinə, sənətinə, texnologiyasına, elminə və təbiət tarixinə dair eksponatlar sərgilənir. Muzey 1889–1900–cü illər arasında Tokio İmperatorluq Muzeyi, 1900–1947 arasında Tokio İmperiya Sarayı Muzeyi, Təhsil Nazirliyinin nəzdində olduğu 1947–ci ildən isə Milli Muzey adı ilə tanındı.

Çin Milli Muzeyi Çinin paytaxtı Pekin şəhərində Tyananmen meydanının şərq tərəfində yerləşir. Çin Milli Muzeyinin əsas missiyası Çinin incəsənət və tarixi haqqında eksponatları sərgiləmək və bu muzeyə gələn tamaşaçıları məlumatlandırmaqdır. Çin Milli Muzeyi Çin Xalq Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən idarə olunur. Bu muzey dünyada ən böyük muzeylərdən biridir. 2013–cü ildə bu muzeyə 7 milyon 500 min nəfər ziyarətçi gəlmişdir. Çin Milli Muzeyinin kolleksiyaları ümumilikdə 1,050,000 qiymətli və nadir eksponatdan ibarətdir. Bu muzeyin əsası 1959–cu ildə qoyulmuşdur. Çin Milli Muzeyinin direktoru müasir dövrdə Lu Zanqşendir.

Çin Milli İncəsənət Muzeyi dövlət səviyyəsində fəaliyyət göstərən bir muzeydir. Bu muzeyin tikintisinə 1958–ci ildə başlanılıb və tikinti 1962–ci ildə tamamlanıb. Muzeyin binası Çin memarlıq üslubunda inşa edilmiş, dam və binanın üst hissəsi sarı kaşılarla bəzədilmişdir. Bu binanın ətrafında qədim tərzdə inşa edilmiş bir çox binalar da vardır. Muzey kompleksinin ümumi sahəsi 7 min kvadrat metrdir.

Yasaq şəhər və ya Ququn imperator sarayı Min sülaləsindən tutmuş, Tszin sülaləsinin sonuna qədər istifadə edilmiş Çin imperiyasını sarayıdır. Çinin Pekin şəhərinin mərkəzində yerləşir. Təxminən 500 il imperatorların yaşadığı məkan olmuş, eyni zamanda Çin hökumətinin ənənəvi və siyasi mərkəzi olmuşdur. Min və Tzin sülalələrinin 24 imperatoru yaşadığı və hökmranlıq etdiyi Yasaq şəhər 1925–ci ildən bəri muzeyi kimi fəaliyyət göstərir. 1406–1420–ci illər arasında inşa edilən Yasaq şəhər saray kompleksi 720 min kvadrat metr bir sahəni (961 x 753 metr) əhatə edir və Yasaq şəhər 8707 otaqdan, 980 tikilidən ibarətdir. Yasaq şəhər 1987–ci ildə Dünya Mədəniyyət İrsi siyahısına əlavə olunmuş və Yunesko tərəfindən dünyada qorunmuş ən geniş antik taxta tikililər kimi qeydiyyata alınmışdır.

Yasaq şəhər 2014–cü ildə ən çox ziyarət edilən muzeyləri siyahısında ilk yeri tutur və 2014–cü il üçün Yasaq şəhəri ziyarət edənlərin sayı təxminən 14 milyondur. Həmçinin 72 ha sahəni tutan Yasaq Şəhər dünyada hazırda mövcud olan ən geniş saray kompleksi kimi də məşhurdur. Yasaq şəhərin memarı Kuai Xianqdır, bu saray kompleksi Min sülaləsinin üçüncü imperatoru Yun–lenin (1402–1424) dövründə inşa edilmişdir. Düzbucaq şəkillində inşa edilən Yasaq şəhər şimaldan cənuba 961 metr, şərqdən qərbə isə 753 metr uzunluğundadır. Yasaq şəhər 7,9 m hündürlüyündə şəhər divarı və 6 m dərinliyində və 52 m genişlikdə xəndəklə əhatə olunmuşdur.

Yasaq Şəhərin bir çox xəzinəsi Çin–Yapon müharibəsində yaponlardan qorumaq üçün şəhərdən şəhərə köçdükdən sonra, ən sonda Tayvanın Taypey şəhərinə aparılmış və burada Milli Saray Muzeyinə yerləşdirilmişdir. «Sarayın divar və damlarındakı bütün bəzək və dekorasiyalar öz zərifliyi və fikir dəqiqiliyi ilə valeh edir, Ququnun memarlıq ahəngləri – sanki üvertüra, variasiya və çox gözəl finalı özündə birləşdirən vahid simfonik əsərdir. Ququn öz dəyəri ilə unikaldır. Bu zəngin xəzinədə Şan (e.ə. XVI–XI əsrlər) və Çjou (e.ə. XI əsr–771–ci ilr) sülalələri dövründən Tsin (1644–1911–ci illə) dinastiyasınadək milyona yaxın mədəniyyət abidəsi qorunur. Ququnun kolleksiyasına əlvan keramikanın ən qədim nümunələri, nefrit məmulatları, gümüş məmulatlar, imperator Tsin Şixuan dövrü əsgər və atlarının qəbirüstü heykəlləri, xəttatlıq, əlyazma əsərləri, bambuk, ağac, fil sümüyü üzərində oymalar, həmçinin çini qablar, naxış tikmə, dəftərxana ləvazimatları və digər tətbiqi sənət məmulatları daxildir. Onlardan 10 minə qədəri dövlət əhəmiyyətlidir. Antiyapon müharibəsi zamanı təcavüzkarlar tərəfindən ələ keçməsinin qarşısını almaq üçün Ququn abidələrinin böyük qismi cənuba köçürüldü. 600 min eksponat Tayvan adasına aparıldı, hazırda onlar hamısı Taybey muzeyində sərgiyə qoyulub. Bu zərif kolleksiyalar qədim Çin incəsənətinə dərin heyranlıq doğurur. Ququnun nəhəng memarlıq abidələri və nadir sərvətləri Çinin parlaq mədəniyyətinin simvoluna çevrilmişdir. İllərdir ki, Ququn hər gün saysız–hesabsız qonaq qəbul edir. Keçmiş imperatorlar bəlkə də heç düşünmürdülər ki, onların sarayı belə cəlbedici gücə malik olacaq» [7].

Dünyanın ən qədim muzeylər içərisində Drezden qaleryasının da adını qeyd etmək yerinə düşərdi. Drezden qaleryasının əsası 1560–cı ildə I Avqust tərəfindən qoyuldu. Bu qaleryanın inkişafında III Avqustun (1733–1763) böyük rolu olmuşdur. 1847–ci ildə Qaleryanın yeni binasının tikintisinə başladı və bu tikinti 1855–ci ildə başa çatdı. «1855–ci il mayın 31–dən sentyabrın 25–dək 2200 əsər köhnə binadan Yeni qaleriyaya köçürüldü və 1855–ci ilsentyabrın 25–də yeni qaleriyanın açılışı oldu. Lakin yeni binanın isitifadəyə verilməsinə baxmayaraq mütəxəssislər yenə də bina çatışmamazlığından şikayətlənirdilər. Buna görə də əsərlər saf–çürük edildi və üç qrupa bölünərək, bir hissəsi saxlanılmış, bir hissəsi də yenə üç yerə bölünərək 1859, 1860 və 1861–ci illərdə satılmışdır. Beləliklə, satılmış əsərlər 566 ədəd olmuşdur.

Bu illərdə İkinci qalerya binasının tikilməsi əsas məsələ kimi qarşıda dururdu. Arxitektorlar Kramer və Puşa binanın tikintisi həvalə edildi. Lakin, 1914–cü ildə başlanan müharibə bu işi yarımçıq qoydu» [3, səh. 73].

Müasir dövrə Azərbaycanda fəaliyyət göstərən məşhur muzeylərdən biri olan Azərbaycan Tarixi Muzeyi isə 1920–ci ildə yaradılmışdır. Məşhur neft sahibkarı və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin yaşayış mülkündə yaradılan bu muzey 1920–ci ilin oktyabr ayının 25–dən Azərbaycan SSR Dövlət Muzeyi adı altında fəaliyyət göstərməyə başladı.

Ölkəmizdə müasir dövrdə yaranan muzeylərə nümunə olaraq Bakı Müasir İncəsənət Muzeyini göstərmək olar. Bu muzeyin açılışı 2009–cu il mart ayının 20–də olmuşdur. Təntənəli şəkildə təşkil olunan muzeyin açılş mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Azərbaycanın birinci xanımı Mehriban Əliyevavə UNESCO–nun Baş katibi Koişiro Matsuura iştirak etmişlər. Avanqard üslubda işləyən azərbaycanlı rəssam və heykəltəraşların əsərləri muzeyin əsas kolleksiyaları içərisindədir. Rəssam Altay Sadıqzadə tərəfindən dizaynı verilən bu muzeydə Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şahtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov, Nadir Əbdurrəhmanovun əsərlərinə də rast gəlmək mümkündür.

### Istifadə olunan ədəbiyyat

1. R. Ağayev, E. Qurbanova, A. Əlizadə. Muzeylərdə elmi–tədqiqat işinin təşkili və metodikası fənni üzrə tədrisin Baloniya təhsil sisteminə uyğunlaşdırılması və tətbiqi. – Bakı, 2011.
2. Əmirxanov S. Hüsenov İ. Dünya muzeylərində tarixi mədəniyyət abidələri. – Bakı, 2008.
3. Sabir Əmirxanov. Muzey fəaliyyətində planlılıq, ardıcıllıq və mütəmadilik əlaqəsi. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Əsərləri. №13. – Bakı: AzTU–nun nəşriyyatı, 2012.
4. https://az.wikipedia.org/wiki/Britaniya_muzeyi#sitat_qeyd–1
5. https://az.wikipedia.org/wiki/Luvr_muzeyi
6. https://az.wikipedia.org/wiki/Metropoliten_muzeyi
7. https://az.wikipedia.org/wiki/Yasaq_şəhər

***Huseynov I.,*** *Doctor of Cultural Studies, Professor, Azerbaijan State University of Culture and Arts (Azerbaijan, Baku), turanly@yahoo.com*

**The historical–cultural view to the development stages of the museums**

*The valuable materials relating to the history of mankind are protected, preserved for future generations and demonstrated by museums. It should be noted the major role of museums in the transmission of the past to the future. The most precious heritage of culture of the world possible to come across exactly in museums.*

*The most valuable samples of material wealth of mankind are protected and demonstrated in the museums as well. In this article the stages of the development of museums approached in the position of the historical and cultural views, also the detailed information on the museums of Azerbaijan were given.*

***Keywords:*** *the world museums, works of art, the museum exhibits, Azerbaijani museums.*

***Гусейнов І.,*** *доктор культурології, професор, Азербайджанський державний університет культури та мистецтв (Азербайджан, Баку), turanly@yahoo.com*

**Історико–культурологічний огляд етапів розвитку музеїв**

*Цінні матеріали, що відносяться до історичного минулого людства, охороняються, зберігаються для майбутніх поколінь і демонструються з боку музеїв. Було б непогано відзначити також велику роль музеїв, яку вони відіграють у передачі минулого майбутньому. Саме в музеях можна зустріти найрідкісніші перлини світової культури.*

*У світових музеях зберігаються і демонструються найцінніші зразки матеріальних багатств людства. У статті до етапів розвитку музеїв підійшли з позиції історико–культурологічного огляду, була дана велика інформація про світові музеї, в тому числі і музеях Азербайджану.*

***Ключові слова:*** *музеї світу, твори мистецтва, музейні експонати, Азербайджанські музеї.*

* * *

УДК 39;572.9

**Вейселова В. Р.,**
доктор философии по истории, доцент, докторант, Институт Археологии и Этнографии Азербайджанской Национальной Академии Наук (Азербайджан),
matlabm@yandex.ru

## Обычаи гостеприимства в Гянджабасарском регионе в XIX начале XX веков

*Данная статья посвящена исследованию, с точки зрения этнографии, существующих обычаев гостеприимства в Гянджабасарском регионе в XIX в начале XX веков. В статье последовательно исследуются, вызывающие интерес, с точки зрения этнографии, такие вопросы как суть обычаев гостеприимства, их роль и место в духовной культуре населения региона, правила выполнения, гость и отношение к нему, встреча, прием и сопровождение гостя и т.д. Здесь также уделяется особое внимание воспитательной значимости обычаев гостеприимства, вопросам овладения молодым поколением нравственно – духовных ценностей и их увековечению. Отмечается, что население региона в своей бытовой жизни сохраняет обычаи гостеприимства, обогащает их всё новыми и новыми традициями.*

***Ключевые слова:*** *Гянджабасар, духовная культура, обычаи, гость, гостеприимство.*

*(стаття друкується мовою оригіналу)*

В рамках системы богатых моральных ценностей, созданных азербайджанским народом, сохранились, присущие нашей этнокультурной среде, отражающие личность, высокие духовные качества нашего народа и переданные из поколения в поколение, многие традиции. Одной из них является гостеприимство. Созвучное со старыми временами, гостеприимство было показателем народной духовности. Характерные для всех народов обычаи и традиции, связанные с гостем и гостеприимством, среди азербайджанцев занимали особое место. С этой точки зрения, наш народ как гостеприимный был прославлен во всем мире. Известный французский социолог и географ XIX века Э. Реклю писал, что азербайджанцы, проживающие в Закавказье (Южный Кавказ), обладали качествами, отличающими их от других народов. Такую уникальную искренность и правдивость, далекую от алчности, слишком большое дружелюбие и гостеприимство можно встретить только лишь среди них. Азербайджанцы на Кавказе считаются народом, распространяющим культуру [5, с. 8].

Гостеприимство – это обычай, который, независимо от социально–экономических и политических условий эпохи, воспринимается одинаково всеми социальными слоями общества. Единственная отличительная особенность заключается в том, что различные социальные группы в зависимости от своих финансовых возможностей и экономического положения выполняют этот обычай по–разному. Все же, суть гостеприимства здесь не меняется, и проявляются разные отличия в ее исполнении. Так, часто эти традиции осуществляются по принципу «возможная трата бедного», «щедрость богатого» [15, с. 171].

Обогащенные обычаи гостеприимства, пройдя жесткие испытания веков, с раннего средневековья занимали достойное место в духовном мире народа, а гость считался «Божьем гостем», то есть самым священным существом, посланным Богом. Не случайно, с древних времен до наших дней путешественники, по другой причине временно посещающие нашу страну гости рассказывали о гостеприимстве на